**Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumu iştirakçıları adından ölkə uşaqlarına**

# MÜRACİƏT

**Hörmətli qonaqlar, əziz uşaqlar!**

Bu gün ölkəmizin bütün şəhər və rayonlarını təmsil edən 300 uşaq hüquqlarımızın müdafiəsi və inkişafı sahəsində əldə olunan nailiyyətləri, mövcud vəziyyəti və gələcəyə dair planları müzakirə etmək üçün bir araya gəlmişik. Dövlətin qayğısı nəticəsində ölkəmizdə artıq milli strategiyaya çevrilən uşaq məsələləri daim diqqətdə saxlanılır.

Biz artıq 6-cı dəfədir ki, Azərbaycan Uşaqlarının Ümumrespublika Forumunu keçirir və öz iştirakımızla həm də bütün Azərbaycan uşaqlarını təmsil edirik. Bu Ümumrespublika Forumu həm bizi düşündürən mövzuları müzakirə etmək, həm də səsimizi cəmiyyətə çatdırmaq üçün ən yüksək platformadır.

Biz həm Foruma hazırlıq mərhələsində, həm də Forum çərçivəsində uşaqlarla birgə müzakirələr apardıq, təkliflər səsləndirdik, 7 aktual və vacib mövzu ətrafında məsuliyyətli və maraqlı iş aparıldı. Biz bütün Azərbaycan uşaqlarının səsi olduq. İnanırıq ki, fəaliyyətimiz səmərəli oldu.

Belə nəticəyə gəldik ki, hüquqlarımızın müdafiəsi, uşaqların sağlam və cəmiyyətə faydalı vətəndaş kimi böyüməsi, milli köklərə bağlı, vətənpərvər ruhda, milli-mənəvi dəyərlərə sadiq şəxsiyyət kimi formalaşması, keyfiyyətli təhsil və tibbi xidmətlərlə təmin olunması istiqamətində dövlət tərəfindən lazimi bütün işlər görülür. Müxtəlif hökumət nümayəndələri ilə dialoqlarımız isə bizə bu istiqamətdə həyata keçirilən fəaliyyətin daha da gücləndiriləcəyi mesajını verdi.

Ölkə Prezidenti cənab İlham Əliyevin də qeyd etdiyi kimi, dünyada gedən sürətli inkişaf prosesləri fonunda bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Biz bacarıqlarımızı yorulmadan inkişaf etdirməli və ölkədə baş verən bütün proseslərin birbaşa iştirakçısına çevrilməli, qalib və müstəqil dövlətimizin bugünki uğurlarını gələcəyə daşımalıyıq.

***Bu yolda hər birimizə uğurlar arzulayıram!***